# Ümumxalq sevgisi

Hər dövlətin inkişafı, tərəqqisi ilk növbədə onun liderindən asılıdır. Azərbaycan xalqının xoşbəxtliyi ondadır ki, ən çətin məqamda dövlətin başında Heydər Əliyev kimi dünya şöhrətli siyasətçi, dövlət xadimi durdu. O, Azərbaycanı böyük bəlalardan xilas etdi və dövlətimizi etibarlı əllərə tapşırıb əbədiyyətə qovuşdu.

Bu gün Azərbaycanın beynəlxalq aləmdə qazandığı nüfuzda, ölkəmizin Qafqazın lider dövlətinə çevrilməsində ulu öndər Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyevin müstəsna xidmətləri olmuşdur.

İstər dünya mətbuatında, istər ölkəmizin kütləvi informasiya vasitələrində, istərsə də müxtəlif nəşrlərdə Azərbaycanın qısa müddət ərzində qazandığı uğurlar barədə, ulu öndər Heydər Əliyevin layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyevin dövlətə və xalqa xidmətləri haqqında son dərəcə maraqlı yazılar dərc edilmişdir.

Azərbaycan Dövlət Aqrar Universitetinin baş müəllimi Nəbi Yusifovun bu günlərdə çapdan çıxmış “İlham Əliyev və dünya siyasəti” adlı kitabının yeni nəşrlər cərgəsində öz yeri vardır.

1992-ci ilin dekabr ayında Gəncədə Yeni Azərbaycan Partiyasının yaradıcılarından biri olan Nəbi Yusifov istər ulu öndər Heydər Əliyevlə, istərsə də Azərbaycan Prezidenti İlham Əliyevlə bağlı çoxsaylı yazıların müəllifidir. Bu yazılarda dövləti və dövlətçiliyi qoruyan, ona sədaqətlə xidmət edən əsl liderin dolğun obrazı canlandırılmışdır.

Heydər Əliyevə həsr olunmuş “Dünyanın ən ideal tarixi şəxsiyyəti” kitabından sonra işıq üzü görən “İlham Əliyev və dünya siyasəti” kitabında Prezident İlham Əliyevin son 11 il ərzində gördüyü möhtəşəm işlərdən, dünya siyasətindəki yerindən, Azərbaycanın xoşbəxt gələcəyində liderin əvəzsiz rolundan söhbət açılır.

Müəllif Azərbaycan Prezidenti İlham Əliyevin fikirlərinə istinad edərək ölkədə görülən möhtəşəm işlərə ekskurs edir: “Mən çox fəxr edirəm ki, son illər ərzində bütün təşəbbüslərim reallığa çevrilib. On il bundan əvvəl, 2003-cü ildə xalqa elan etmişdim və bəyan etmişdim ki, əgər mənə etimad göstərilərsə, mən Heydər Əliyev siyasətinə sadiq qalacağam. Son 10 il ərzində bu siyasətə sadiq qalaraq Azərbaycanın inkişafı, Azərbaycanın tərəqqisi üçün çox böyük işlər görülmüşdür. Müstəqilliyimiz dönməzdir, sarsılmazdır. Bu illər ərzində müstəqil siyasətimiz istənilən sahədə özünü göstərmişdir. Biz öz milli maraqlarımızı lazımi səviyyədə müdafiə edə bilərik, müdafiə edirik, edəcəyik.

Mənim üçün Azərbaycan dövlətinin maraqları ən birinci yerdədir. Bu maraqların müdafiə edilməsi üçün xalqla iqtidar arasındakı birlik əsas şərtdir. Mən bütün addımlarımda xalqın dəstəyini hiss edirəm. Məhz xalqla iqtidar arasındakı birlik, vəhdət Azərbaycanı fərqləndirən amillərdən biridir”.

Azərbaycan Prezidenti İlham Əliyevin bu fikirləri əslində verdiyi sözə, öz xalqı qarşısında götürdüyü öhdəçiliyə əməl edən bir liderin atdığı addımlarda nə qədər inamlı olduğunu göstərir.

Kitabda həmçinin müəllifin ölkə başçısı İlham Əliyevə və xanımı—Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevaya ünvanladığı müraciətlərə, əlamətdar günlərlə bağlı, görülən işlərə rəğbət hissilə dolu teleqramlara və məktublara da yer verilmişdir.




Ölkə başçısı İlham Əliyevin gördüyü möhtəşəm işlərə öz rəğbət hissini bildirən Nəbi Yusifov həm də gəncəlilər adından danışır, qədim Nizami yurdunun həmişə, hər vaxt öz Prezidentinin yanında olduğunu inamla qeyd edir.

Azərbaycan Dövlət Aqrar Universitetinin baş müəllimi Nəbi Yusifovun “İlham Əliyev və dünya siyasəti” kitabı həm də dünyanın qabaqcıl dövlətlərinin liderləri arasında öz dəst-xətti olan Azərbaycan Prezidenti İlham Əliyevə xalq inamının, xalq məhəbbətinin bariz nümunəsidir.

**Zülfüqar ŞAHSEVƏNLİ,**
**“Respublika”.**